# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 348** **Bakı şəhəri, 8 avqust 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451; 2012, № 12, maddə 1361; 2013, № 5, maddə 589, № 10, maddə 1205) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın 6.9.8-ci yarımbəndindən sonra aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Bu Qaydaların 6.9.5-ci və 6.9.6-cı yarımbəndlərində nəzərdə tutulan sənədlər barədə məlumatların elektron informasiya ehtiyatlarından əldə edilməsi mümkün olduqda, həmin sənədlərin təqdim edilməsi tələb olunmur.".

***Novruz MƏMMƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***